# Laçın zirvəsi: Qlobal nizamda mühüm reallıqlar



**Azərbaycanın dövlət siyasətində iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi təmin edilib. Bunun nəticəsi olaraq respublikamızda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşıb.**

## *Azərbaycan geosiyasi, iqtisadi proseslərin mərkəzində*

Uğurla reallaşdırılan böyük investisiya tutumlu layihələr hesabına bu gün Azərbaycan güclü infrastruktur təminatına malik ölkəyə çevrilib. Özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan ölkəmiz milli maraqlara əsaslanan praqmatik siyasət nəticəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir.

**(davamı 8-ci səhifədə)**



# Laçın zirvəsi:

## Qlobal nizamda mühüm reallıqlar




## *Azərbaycan geosiyasi, iqtisadi proseslərin mərkəzində*

(əvvəli 1-ci səhifədə)

İrəli sürülən bütün alternativ təşəbbüslərə rağmən, enerji dünyanın mövcud geosiyasi mənzərəsini və müasir qlobal çağırışları müəyyənləşdirən başlıca amil kimi çıxış edir. Genişmiqyaslı inflyasiya ilə xarakterizə olunan qlobal maliyyə böhranının əhatə dairəsinin genişlənməsi, neftin qiymətinin kəskin şəkildə düşməsi iqtisadiyyatda həlledici rol oynayan enerji amilinin təsir gücünü bir daha nümayiş etdirir. Bu amilin yaratdığı yeni geosiyasi reallıqlar enerji təhlükəsizliyi, enerji asılılığı kimi məsələlərin siyasi məzmununu gücləndirməklə yanaşı, istər enerji resurslarının hasilatçısı və ixracatçısı, istərsə də idxalçısı olan dövlətlərin öz enerji siyasətinə daha geniş aspektdə baxmasını zərurətə çevirmiş, enerji asılılığından qurtuluşu hər bir ölkənin müstəqilliyinin uzun bir dövr üçün vacib şərti kimi müəyyənləşdirmişdir.

Dünya çətin dövrə qədəm qoyub. Belə çətin dönəmdə Azərbaycan, Türkiyə, Pakistan birliyi vahid siyasi, iqtisadi və hərbi güc kimi yeni reallıq yaradır. Azərbaycanın Müstəqillik Günündə Türkiyə və Pakistan liderlərinin Laçına gəlmələri və bir yerdə dünyaya mesajların verilməsi sarsılmaz birliyimizin təsdiqidir. Mayın 28-də Laçında keçirilən Azərbaycan, Türkiyə və Pakistan dövlət başçılarının ikinci Zirvə görüşü və Müstəqillik Gününə həsr olunmuş tədbirlərdə iştirak etmələri tarixi və rəmzi xarakter daşımaqla strateji əhəmiyyətə malik hadisədir. Üç qardaş ölkə bir yerdə daha güclüdür. Ölkələrimiz 360 milyona yaxın əhali və 1,7 trilyon dollardan çox ÜDM ilə böyük qlobal gücdür. Türkiyənin müdafiə sənayesi yüksək inkişaf edib və ordusu dünyada 9-cu yerdədir. O cümlədən, Pakistan nüvə ölkəsidir və ordusu da 12-ci yerdə qərarlaşıb. Azərbaycan, Türkiyə və Pakistan arasında formalaşan üçtərəfli modelin perspektivləri olduqca genişdir. Strateji əməkdaşlıq bütün sahələri əhatə edir və davamlı inkişaf üçün möhkəm təməl yaradır. Bu dostluq və birliyin möhkəmlənməsində ölkə liderlərinin rolu xüsusi vurğulanmalıdır. Hər üç dövlətin başçıları həm öz ölkələrində, həm də beynəlxalq aləmdə söz sahibi olan nüfuzlu liderlərdir.

Vətən müharibəsi zamanı Türkiyə və Pakistan güclü dəstəklə yanımızda oldu. Hindistan-Pakistan münaqişəsi zamanı da Azərbaycanla Türkiyə eyni mövqedən çıxış etdi. Bizim bir yerdə olmağımız gücümüzü artırır, hərtərəfli əməkdaşlığı genişləndirir. Zirvə görüşü üç ölkə arasında strateji tərəfdaşlığı möhkəmləndirməklə, eyni zamanda regional sabitlik və əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Zirvə görüşünün əsas mövzuları təhlükəsizlik, enerji sahəsində əməkdaşlıq, regional nəqliyyat layihələri və humanitar sahədə birgə təşəbbüslər oldu. Prezident İlham Əliyev çıxışında Laçında belə bir yüksək səviyyəli tədbirin keçirilməsinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyatın bərpası və beynəlxalq əməkdaşlığın inkişafı baxımından simvolik əhəmiyyət daşıdığını vurğuladı: "Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanıram. Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub, Pakistan iqtisadiyyatına 2 milyard ABŞ dolları qoymağa hazırdır. Hazırda konkret investisiya layihələri üzrə işlər gedir". Bu fikirləri dövlət başçımız Zirvə görüşündə bildirib. Qeyd edib ki, Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Multimodal yük marşrutunun inkişafı ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik. Həmçinin, rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar kimi yeni əməkdaşlıq sahələrini araşdırmalıyıq.



Azərbaycan və Türkiyənin təşəbbüsü ilə yaradılan beynəlxalq nəqliyyat dəhlizləri Asiya ilə Avropa arasında yükdaşımalarda mühüm rol oynayır. Pakistan da öz növbəsində, qonşu dövlətlərin açıq dənizlərə çıxışını və daşımaların həyata keçirilməsini fəal şəkildə dəstəkləyir. Azərbaycan-Türkiyə-Pakistan qardaşlığı və birliyi qlobal əməkdaşlığa və təhlükəsizliyə töhfələr verir. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinə əsaslanan əlaqələr zamanın sınağından uğurla çıxıb. İki ölkə arasındakı əsl dostluq və qardaşlıq münasibətlərinin mahiyyəti Ulu Öndər Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" kəlamında öz əksini tapır. Prezident İlham Əliyev isə iki dövlət arasındakı qardaşlığı belə ifadə edib: "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır".

Azərbaycan ilə Pakistan arasında da münasibətlər tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Azərbaycan-Pakistan münasibətlərinin yüksələn xətlə inkişafına həm dövlətlər səviyyəsində qətiyyətli siyasi iradə nümayiş etdirilir, həm də buna cəmiyyətlərimizin böyük istəyi var. Üç qardaş ölkənin rəhbərləri Laçından dünyaya önəmli mesajlar verdilər. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, Laçın Beynəlxalq Hava Limanı regionun inkişafına və dünyaya inteqrasiyasına mühüm töhfə verəcək. Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə regionun inkişaf və tərəqqi mərkəzinə çevrilməsinin vaxtı çatıb. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif vurğuladı ki, gözəl Laçında Azərbaycan, Türkiyə və Pakistan bayraqlarının dalğalanmasını görmək qəlblərimizi hədsiz sevinc və fəxarət hissi ilə doldurur. Pakistan, Türkiyə və Azərbaycan - bu gün üç ruh, bir qəlbdir.

Hazırda konkret investisiya layihələri üzrə işlər gedir. Bakı-Tbilisi-Qars, Zəngəzur dəhlizi və Orta Dəhliz kimi nəqliyyat arteriyaları sadəcə logistik layihələr deyil, geosiyasi güc xətləri kimi fəaliyyət göstərir. Bu xəttin Pakistanla birləşməsi Mərkəzi Asiyadan Hind okeanına uzanan ticarət və təsir coğrafiyasının formalaşmasına şərait yaradır. Zəngəzur dəhlizi də region üçün çox böyük strateji əhəmiyyətə malik olacaq. Əlverişli coğrafi mövqeyə, zəngin enerji ehtiyatlarına malik Azərbaycan bu gün dünyada qlobal əhəmiyyətli layihələrin təşəbbüskarı kimi tanınır. Ölkəmiz Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat qovşağı və logistik mərkəz rolunu oynayır. İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra işğaldan azad edilən torpaqlarımızda reallaşdırılan yeni layihələr Azərbaycanın geosiyasi və geoiqtisadi imkanlarını getdikcə artır. Bu xüsusda yaxın zamanlarda reallığa çevriləcək Zəngəzur dəhlizinin həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün əhəmiyyəti danılmaz faktdır. Azərbaycan bu dəhliz üzərindəki hava xəttindən artıq çoxdan istifadə edir. Belə ki, beynəlxalq dəhliz hesab olunan bu ərazidən Naxçıvana uçan təyyarələr həm vaxta, həm də yanacağa qənaət edirlər. Amma dəhliz yalnız bundan ibarət deyil. Əsas məsələ dəmir yolu xətti və avtomobil yolunun istifadəyə verilməsidir. Artıq xeyli müddətdir ki, Azərbaycan Prezidentinin nəzarəti altında bu istiqamətdə böyük işlər həyata keçirilir. İndi əsas diqqət dəhlizin quru yollarının açılışına istiqamətlənib.Bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Prezident İlham Əliyevin süni intellekt və kosmik texnologiyalarla bağlı çağırışı gələcəyin yeni güc mənbəyinə açılan qapıdır. Bu strateji baxış onu göstərir ki, Laçında yüksələn mesaj yalnız bu günün deyil, XXI əsrin nəbzini tuta bilən siyasi vizyondur. Azərbaycanın və müttəfiqlərinin süni intellekt, kosmik texnologiyalar, rəqəmsal innovasiyalar sahəsində əməkdaşlıq təşəbbüsü, bilik üzərində qurulan müstəqil güc anlayışının göstəricisidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın vurğuladığı kimi, coğrafiyamızda və onun hüdudlarından kənarda təhlükəsizlik təhdidlərindən tutmuş iqtisadi çətinliklərə, enerji və qida böhranlarına qədər bir çox sınaqlarla eyni anda üz-üzəyik. Bu çətinliklər qarşısında həmrəylik və birgə fəaliyyəti bir seçim deyil, zərurət olaraq görürük. Oxşar baxışları, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də ifadə etdi. Pakistan lideri də o fikri bölüşdü ki, bugünkü təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir.

Azərbaycanın geosiyasi mövqeyi xüsusilə Xəzər dənizi və Cənubi Qafqaz bölgəsi vasitəsilə Avropa və Asiya arasında qlobal ticarət yollarını birləşdirən əhəmiyyətli tranzit dəhlizlərinə çıxış imkanı verir. Bu coğrafi üstünlük Azərbaycanın beynəlxalq ticarət və nəqliyyat mərkəzi kimi inkişaf etməsinə şərait yaradır. Ölkə, həmçinin müxtəlif beynəlxalq nəqliyyat layihələrində aktiv iştirak edir, bu da Azərbaycanın iqtisadiyyatının şaxələnməsinə və regionda əhəmiyyətli ticarət tərəfdaşı olmasına səbəb olur. Ölkəmizin coğrafi mövqeyi, həmçinin Qərb-Şərq Nəqliyyat Dəhlizinin inkişafına şərait yaradır. Bu dəhliz, Avropa ilə Asiya arasında hərəkət edən yüklərin sürətlə daşınmasını təmin edir.

Laçın Zirvə görüşü beynəlxalq əlaqələr baxımından nə qədər mühüm hadisədirsə, bir o qədər də böyük rəmzi məna daşıyır. Heç şübhəsiz ki, Vətən müharibəsindən sonra azad olunan Laçın şəhərinin üç ölkə liderinin Zirvə görüşünə ev sahibliyi etməsi regionda təhlükəsizliyin və hökm sürdüyünün bariz nümunəsidir. Ölkəmiz yüksəksəviyyəli bu görüşlə dünya ictimaiyyətinə mesaj verdi ki, işğaldan azad olunmuş ərazilər artıq sabitliyin, tərəqqinin, inkişafın, ən önəmlisi isə beynəlxalq əməkdaşlığın mərkəzinə çevrilib. Qardaş Türkiyə və Pakistan Cənubi Qafqazda yeni əməkdaşlıq imkanlarının açılmasında səylərini ortaya qoymaqla mövqelərini bir daha nümayiş etdirdilər.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 4 iyun(№ 115).- S.1;8.